AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 3 (269), 30–38

**D İ L Ç İ L İ K   M Ə S Ə L Ə L Ə R İ**

# Müasir Azərbaycan dilinin sosiolinqvistik aspektdə öyrənilməsi

***Cahid Kazımov***
Filologiya üzrə fəlsəfə doktoru, dosent. AMEA Nəsimi adına Dilçilik İnstitutu. Azərbaycan.
E-mail: cahid@ismayiloglu.com
https://orcid.org/0000-0002-3955-4065

**XÜLASƏ**
Mühüm ünsiyyət vasitəsi olan müasir Azərbaycan dili müxtəlif istiqamətlərdə tədqiq olunur. Bunlardan biri də sosiolinqvistik aspektdir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu aspektdə dilimizin funksional imkanları çox az öyrənilib. Məlumdur ki, dilin funksionallaşaraq dəyişməsi və inkişafı onun başlıca keyfiyyətidir. Məqalədə müasir Azərbaycan dilinin işlənilmə sferaları, funksional özəllikləri müəyyənləşdirilir və dil-danışıq sahələrinin daralma imkanları öyrənilir. Azərbaycan dilinin ümumi sosiolinqvistik durumu, funksional olaraq işlənilməsi, ünsiyyət vasitəsi və rəsmi dövlət dili kimi işləkliyi müəyyənləşdirilir. Bundan əlavə, məqalədə müasir Azərbaycan dilinin sosial şərtləndirilməsi prosesi, sosial diferensiallaşması, sosial inkişaf şərti, sosial və funksional diferensiasiya, milli dillərin sərhədləri, ədəbi dil, ərazi dialektləri və dilə sahib olmanın (yiyələnmənin) bir çox mühüm məsələləri də araşdırılır.

**AÇAR SÖZLƏR**
Azərbaycan dili, sosiolinqvistika, sosioloji dilçilik, dil

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 10.08.2021
qəbul edilib: 16.08.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO. 3, VOL. 269, 30–38

**LINGUISTIC ISSUES**

# Study of modern Azerbaijani language in sociolinguistic aspect

***Jahid Kazimov***
PhD in Philology, Associate Professor. Institute of Linguistics named after Nasimi of ANAS. Azerbaijan. E-mail: cahid@ismayiloglu.com
https://orcid.org/0000-0002-3955-4065

**ABSTRACT**
The modern Azerbaijani language, which is an important means of communication, is studied in various directions. It is unfortunate that the functional capabilities of our language have been little studied in this regard. It is known that the main quality of language is its functional transformation and development. The article identifies the spheres of development of the modern Azerbaijani language, its functional features and+ explores the possibilities of narrowing the field of language. The general sociolinguistic status of the Azerbaijani language, its functional development, its function as a means of communication and the official state language are determined. In addition, the article examines the process of social conditioning of the modern Azerbaijani language, social differentiation, conditions of social development, social and functional differentiation, borders of national languages, literary language, territorial dialects and many important issues of language acquisition.

**KEYWORDS**
Azerbaijani language, sociolinguistics, sociological linguistics, language

**ARTICLE HISTORY**
Received: 10.08.2021
Accepted: 16.08.2021

## Giriş / Introduction

Sosiologiya bir elm kimi sosial həyatın sosial sferalarının müxtəlif tərəflərini deyil, onu qarşılıqlı təsir və münasibətdə olan bütün istiqamətləri ilə birlikdə tam bir proses kimi öyrənir. İlk növbədə, cəmiyyətin mənəvi sferasının dəyişməsi konteksti əsas götürülür.

Cəmiyyətdə baş verən inkişaf və dəyişmələr dil vasitəsilə inikas olunur. "İnsan fəaliyyəti adətən mənəvi sahə ilə məhdudlaşır, köklü, zəruri ictimai dəyişikliklər isə cəmiyyətin mənəvi sferasından asılıdır" [2, s.329].

Sosiologiya elmi ilə dilçiliyin birləşməsi sosiolinqvistikanı formalaşdırmışdır. Sosiolinqvistik problemlər, necə deyərlər, həyati önəm daşıyan məsələlərdəndir. Dövlət dili kimi müasir Azərbaycan dilinin elmi-nəzəri və təcrübi aspektlərinin hərtərəfli, sistemli və kompleks biçimdə təhlili çoxmillətli (tat, talış, ləzgi və b.) cəmiyyətdə xüsusi əhəmiyyətə malikdir.

Sosiolinqvistika sahəsində tanınmış mütəxəssislərin ümumi qənaəti bundan ibarət olmuşdur ki, sosioloji linqvistika elmi müasir dövrə aid araşdırmalar aparır. Ümumi nəticəyə görə, sosioloji tədqiqatlar da dünyanın dil mənzərəsini, dil xəritəsini dəyişə bilir.

Bu gün müasir Azərbaycan dili ölkəmizdə rəsmi dövlət dili səviyyəsində istifadə olunmaqla, dünyada işləkliyini ədəbi dil və danışıq-kommunikasiya vasitəsi olaraq davam etdirməkdədir. Belə ki, sözügedən dil yuxarıdakı səviyyələrdə müxtəlif diaspor ortamlarında, başqa qitələrdə də get-gedə daha geniş şəkildə yayılmaqdadır. Məhz bu sosiolinqvistik kontekst və onun meydana gətirdiyi konseptual şərtlər müasir Azərbaycan dilinin funksional təbiətinin də öyrənilməsini şərtləndirir.

Bəllidir ki, dil müxtəlif aspektlər üzrə öyrənilir. Həmin aspektlərdən biri də sosiolinqvistik istiqamətdir. Dil – təzahürünün, fəaliyyət və inkişafının bütün dövrlərində mühüm sosial hadisə olaraq cəmiyyətdən kənarda mövcud deyil. O, həm də mürəkkəb sosial hadisədir. Bu baxımdan dil çoxaspektə malik fenomendir. Yəni dilə sosiolinqvistik baxış və yanaşma onun bir tərəfdən linqvistika, digər tərəfdən isə sosiologiyanın çarpazlaşdığı bir məkanda yaranmasıdır. Bu baxış və yanaşma nədən ibarətdir? Xüsusi dil qanunauyğunluqları, dillərin inkişafı və funksionallaşması, bu işin görülməsi üçün sosial faktorların mövcudluğu, prosesin təsir dərəcələri və s. Sosiolinqvistik tədqiqatlarda *"dil faktları ilə sosial faktorlar arasındakı əlaqə və münasibətlər, bunların bir-birinə təsiri və bir-birinin variantı kimi ortaya çıxması, digər sözlə, bu iki növ fenomen arasındakı ekvivalentlik öyrənilməkdədir"* [3, s.204].

Hazırda dil və cəmiyyət, dil və etnik-demoqrafik mədəniyyət, regional və sosial

dialektlər, ictimai xarakterli ayrı-ayrı dil amilləri və hadisələrinin bir-birinə diaqnostik təsiri kimi bir sıra qeyri-münasib durum meydana çıxır. Buna misal olaraq, ikidillilik və çoxdillilik şəraiti nəticəsində hər hansı bir dildən istifadə edənlərin kəmiyyətcə azalması və həmin dilin işlədilməsinin funksional imkanlarının daralması kimi məsələlər həmin qeyri-münasib vəziyyəti səciyyələndirə bilir [4, s.144]. Azərbaycan dilinin regional və sosial dialektləri, ədəbi dildə norma və normalaşma, ayrı-ayrı ərazilərdəki birinci dil, ikinci dil, əcdad dil, rəsmi dil, ana dili olma və istifadə olunma problemləri dilçiliyin sosiolinqvistika sahəsində yer almaqdadır.

Hələ Sovet hakimiyyəti zamanında müasir Azərbaycan dilinə dair sosiolinqvistik tədqiqatlar, əsas etibarilə, rus dili və Azərbaycan dilinin əlaqə və münasibətləri, ikidilliliyi kontekstində, demək olar ki, rus dilinin millətlərarası bir kommunikasiya vasitəsi kimi problemlərinin həlli aspektində aparılmışdır. Sonrakı müstəqillik illərində həm ikidillilik, həm də çoxdillilik mühitində başqa milli dillərin də millətlərarası kommunikasiya dilolma statusuna, azsaylı dillərin isə sosioloji tərəflərinə diqqət yetirilmişdir. "*Bu dillərin praktik olaraq öyrənilə bilməsindən ötrü həmin zamanda müxtəlif televiziya-radio verilişləri, o sıradan terminoloji lüğətlər, dili öyrənən danışıq kitabçaları, dərslik və dərs vəsaitləri də hazırlanaraq istifadəyə verilmişdir*" [8, s.4-5].

Gündəlik işlədilən sözlərin, terminoloji vahidlərin istifadə olunmasının təşviq edilməsi dil fəaliyyətlərində geniş yer tutur. Azərbaycanda, ilk növbədə, Azərbaycan dilinə görə müəyyənləşən milli dövlətin simvolu daxilində birdilliliyə (paytaxtda) dayanan standart bir ədəbi dil mühiti vardır. Çoxdillilik şəraitində isə öncələr daha çox azərbaycanca-rusca, indi isə azərbaycanca-ingiliscə paralelli və təlim-tədris xarakterinə malik Azərbaycan ədəbi dilinin istifadəsi ilə görünməkdədir. Son illərdə məhz ana dilinin daha çox müəyyən sosial və tədris ocaqlarında, milli dil olaraq funksionallığının, işləkliyinin genişləndiyi müşahidə olunur. Bu cür vəziyyət Azərbaycanda sosiolinqvistik tədqiqatlar şəbəkəsinin artırılması vacibliyini şərtləndirir.

Sosiolinqvistik istiqamətlərlə aparılan tədqiqatlarda ən çox dil və cəmiyyət, dil və etnoqrafiya, etnolinqvistika, dil və mədəniyyət əlaqələri, ikidillilik və çoxdillilik ortamları öyrənilmişdir. Dillərin sosiolinqvistik aspektdə öyrənilməsi xüsusi dil qanunauyğunluqları, onların inkişafı və cəmiyyət üzvləri arasında funksionallaşması, həmçinin də bir sıra sosial faktorların təsir dərəcəsi (sosial faktorlar dilin strukturuna öz təsirini göstərir (*seçdirmə bizimdir-Cahid Kazımov*)) ilə şərtlənir. Buraya dillərin sosial diferensiasiyasını, ərazi və sosial dialektləri, xalq dilini, professional jarqonları

da əlavə etmək olar. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında qeyd edilir: *"Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir"*. Azərbaycan dil quruculuğu sahəsində planlı şəkildə həyata keçirilən dövlət dil siyasəti sosiolinqvistik araşdırmaların genişləndirilməsini günün aktual məsələlərindən biri etmişdir.

Cəmiyyət tarixi proses olduğu kimi, dil də tarixi prosesin məhsuludur. Sosial münasibətlər kimi aktual problemlər də bu gün dilin vasitələri ilə ifadə olunur.

"Sosiolinqvistika" yaxud "sosioloji dilçilik" aydın məsələdir ki, dilin cəmiyyətdəki funksiyalarını öyrənir. Daha doğrusu, bu elm sosiologiya və linqvistikanın birləşdiyi bilik sahəsi olan ünsiyyət situasiyalarını və kommunikativ aktları sistemli şəkildə tədqiq edir. Bundan əlavə, cəmiyyətin sosial quruluşu ilə dilin qarşılıqlı münasibəti bu problemin həllinə istiqamətlənir.

Sosioloji dilçilik dillərin qarşılıqlı təsirinin, inkişafının, fəaliyyətinin ümumi və xüsusi *sosial şərtləndirilmiş* qanunauyğunluqlarını araşdırır. "*Dilin sosial şərtlənmiş işlənməsinin iki təsvir üsulu göstərilir. Onlardan birincisi sosiolinqvistika adlanır və deskriptiv dilçiliyin modellərini qüvvətləndirə bilən sosial məlumatları əhatə edir, onlara daha ümumi səciyyə verir, yəni bu üsul öz əsasında linqvistikdir və dilçiliyin öz dairəsini cümlənin hüdudlarından kənara "danışan-dinləyən" interaksiyası qrammatikalarına doğru istiqamətlənən genişləndirilməsi ilə əlaqədardır. Bu mənada ciddi sosiolinqvistik üsul, ziddiyyətli görünsə də, öz-özünü ləğvetmə deməkdir, belə ki, o, bütün dilçilər tərəfindən qəbul edilərsə, onun uğurları mütləq olar.*

*İkinci üsul dilin sosiologiyası adlanır və qarşıya geniş, fənlərarası məqsədlər qoyur: dil və sosial strukturlarını işarələrin sosial həyat kontekstində necə istifadə edilməsini öyrənmək vasitəsilə dilçiliyi sosial elmlərlə birləşdirən müəyyən işarə nəzəriyyəsi formasında birləşdirmək"* [1, s.3].

Müasir Azərbaycan dilinin qeyd olunan aspektdə tədqiqi sahəsində az sayda tədqiqatlar mövcuddur. Ölkə rəhbərliyinin Azərbaycan dili sahəsində elmi əsaslandırılmış dövlət siyasəti həyata keçirməyə başlamasından sonra bu yöndə araşdırmalar genişlənməyə başlamışdır. Həmin tədqiqatlarda dil və cəmiyyət, dil və dərketmə, dil və nitq arasındakı münasibətlər müəyyən edilir, dil və nitqin funksiyaları fərqləndirilir, onların sosiallığı, cəmiyyətin sosial və ərazi diferensiallaşması ilə dilin sosial və ərazi diferensiallaşması arasındakı asılılıq dəqiqləşir. Bundan başqa, cəmiyyətin inkişafının dilin səviyyələrinin diferensiallaşmasına təsiri göstərilir, ikidillilik və diqlossiya şəraiti, dil situasiyası tipologiyası, dil siyasəti və dil quruculuğu, dilplanlaşdırma və proqnozlaşdırma problemlərinə aydınlıq gətirilir.

Dilin hansı funksiyaya malik olduğunu sosioloji dilçilik öyrənir. Bu, ən mühüm vəzifədir. Faktlar demək olar ki, sosiolinqvistik cəhətdən təhlilə cəlb edilir.

Müasir Azərbaycan dilinin tədqiqi aspektlərindən birini *"nitq davranışı"* təşkil edir. O, cəmiyyətdə mühüm bir prosesdir. Nitq davranışı əslində ümumi sosial davranışın mühüm tərkib hissəsidir. Amerikalı linqvist E.Sepir nitq davranışı haqqında ideyalarına onun modelləşdirmə ideyasını da əlavə edir. Bu o deməkdir ki, həmin modelləşmədə dil və mədəniyyət izomorfizmi, ən başlıcası isə, xalqın mənəvi həyatında dilin rolu, dildə baş verən sosial hadisələr, təsirlər və dəyişmələr öyrənilir.

Dil variantları da sosiolinqvistik mövzudur. Bu mövzuya dilin başqa ifadə formalarının seçilmə qanunauyğunluqları və s. daxildir.

Sosioloji dilçilik dilin ərazi, sosial və funksional variantlarını öyrənməklə də məşğul olur, onu heterogen sistem kimi araşdırır (dil yekcins deyildir). Sosioloji dilçilikdə dilin vahidləri dili üfüqi xətt üzrə hissələrə ayıraraq tədqiq edir, dilin səviyyələrinin elementləri arasında ziddiyyət münasibətlərini ortaya çıxararaq araşdırır. Sözügedən dilçilik sahəsinə görə dildən istifadə, dilişlətmə (*dilin ontologiyası*) adlarının dəyişdirilmə üsullarının cəmi kimi götürülür.

Dil quruculuğu məsələləri də sosioloji dilçiliyə daxil olan mövzulardandır. Əsas məsələ o dövrdə yazısız dillər üçün hansı ədəbi dilin seçilməsi, köhnə (əsas) dialektin müəyyən edilməsi, hansı tələblərə cavab verməsi, yeni formalaşdırılmış ədəbi dili həyatda tətbiq etmək və digər məsələlərin zəruri olması idi. Müəyyən dövrlərdə dil quruculuğu sahəsində millətlərarası kommunikasiya vasitəsi kimi rus dili əsas dil kimi götürülmüşdür. Amma bununla belə, hər bir xalqın ana dili dövlət statusunda rəsmi dil olaraq işlənməli idi.

Müəyyən dövrlərdə rusiyalı linqvist Y.D.Polivanovun bu yöndə sosiolinqvistik tədqiqatları mühüm önəm daşıyırdı. Onun fikrincə, *"dilçilik elmi öz araşdırma obyektinə uyğunlaşmaq üçün sosioloji elmə çevrilməlidir. Burada dilin dəyişməsinə təsir göstərən əcnəbi faktorları, düzgün müəyyənləşdirmək lazım gəlir"* [10, s.4-5].

Linqvist V.A.Avrorin SSRİ dövründəki dillərin sosioloji bölgüsünü apararaq, həmin bölgüdə dillərin funksional inkişaf səviyyəsini əsas kimi qəbul edir. Bu bölgüdə dillər qədim yazılı, yeni yazılı və yazısız olmaqla 3 qrupa ayrılır [5, s.49-62]. Rusiyalı linqvist Y.D.Deşeriyev isə dilləri sosial funksiyaları etibarilə 5 qrupa ayırır:

1. Millətlərarası ünsiyyət vasitəsi kimi rus dili;
2. Müttəfiq respublikaların milli ədəbi dilləri;
3. Muxtar respublikaların və vilayətlərin ədəbi dilləri;
4. Sosial funksiyaları lokal (məhdud) olan yazılı dillər;
5. Kiçik xalqların yazısı olmayan dilləri.

Dilçi-alim hələ sovet dönəmində dillərin sosial aspektlərini, yəni inkişaf qanunauyğunluqlarını aşağıdakı kimi müəyyənləşdirmişdir:

1) sosial funksiyaları genişlənmiş dillər;
2) lüğət tərkibi sürətlə inkişaf etmiş ədəbi dillər;
3) ədəbi dillərdə sosial inkişaf və dəyişmənin sürətinin, intensivliyinin əksi;
4) dillərarası qarşılıqlı əlaqə və münasibətlərin inkişafı;
5) dialektlərin qismən unudulmasına səbəb cəmiyyətin sürətli inkişaf amilidir;
6) millətlərarası kommunikasiya dilinin sosial funksiyaları və onun digər dillərə təsiri güclənir;
7) bilinqvizm-ikidillilik inkişaf edir;
8) dillərin inkişafına cəmiyyətin şüurlu müdaxiləsinin rolu və əhəmiyyəti artır [6, s.26-42].

Sosiolinqvistik aspektlərdən biri *"dilin gerçək aləmlə çoxplanlı münasibətlərinin nəzərdən qaçırılmamasıdır*". Çünki dil işarəsi sosial və funksional xarakterə malikdir. Bu o deməkdir ki, dil funksionaldır, ələlxüsus da burada dinamik kommunikativ funksiya üstündür. Nitq fəaliyyətinin daha geniş və başqa aspektlərdə öyrənilməsi üçün kommunikasiya yaradan qarşılıqlı münasibətlər (onların sosial, professional, ərazi münasibətləri) ən əsas amil hesab edlir.

Beləliklə, sosiolinqvistik aspektin ən başlıcası dilə funksional sistem olaraq yanaşmasındadır. Bu zaman dil sosial birlik və qruplarla sıx əlaqədə öyrənilir. Öyrənilən problem isə nitq fəaliyyətinə əcnəbi və sosial amillərin təsiridir.

Beləliklə, dilin varlığı və inkişafı daim cəmiyyətlə bağlı diqqət mərkəzindədir.

Ölkəmizdə sosiolinqvistika elmi bir o qədər də inkişaf etməmişdir. Bilmək lazımdır ki, ümumiyyətlə, dilçilik, xüsusilə də sosioloji dilçilik "elm xatirinə elm" deyildir, bəlkə müxtəlif dil problemlərini həll etmək, yoluna qoymaq üçün böyük önəmi olan bir sahədir.

Sosiolinqvistik aspektlərdən biri də sosial dialektlərin mövcudluğu məsələsidir. Tədqiqatlar sübut edir ki, *"sosial dialektlərin varlığı son nəticədə cəmiyyətin sinfi diferensiasiyasından yaranır, amma həmin sosial diferensiasiyanın konkret formaları müəyyən sinif nümayəndələri ilə müstəqim şəkildə bağlı deyildir. Dil hadisəsinin sosial mənşəyi çox mürəkkəb biçimdə onun ictimai funksiyası ilə çulğalaşmış olur. Bunu oxşar sosial mühitdə dilin ayrı-ayrı səviyyələri kimi dialektin və yarımdialektin olması göstərir"* [7, s.32-33].

Müasir Azərbaycan dili ilə bağlı həll olunacağı gözlənilən sosiolinqvistik aspektlər aşağıdakılardır:

1. *Azərbaycan dilinin sosial şərtləndirilməsi problemi*. Linqvistikada dilin sosial

şərtləndirilməsi bir problemdir. Hələ qədim dövrlərdə dilçilər dilin insan cəmiyyəti ilə sıx bağlılığından çox bəhs etmişlər. Dilin sosial təbiəti fonundan istifadə edəndə ictimai səciyyə kəsb edir. Dil cəmiyyətin həyatında olan dəyişmələri inikas etdirir. Bu inikasın xarakteri dilin inkişaf tempindən, sosial təbiətindən asılıdır. *"Cəmiyyət-dil"* sxemi bu məzmunu əhatə edir. Həmin hipoteza Sepir-Uorfa məxsusdur. Hazırda dilin sosial şərtləndirilməsini öyrənmək üçün iki istiqamətə diqqət yetirmək lazımdır: 1) dilin sosial diferensiasiyası cəmiyyətin sosial təbəqələşməsi ilə sıx şəkildə bağlıdır; 2) sosial şərt dili inkişaf etdirir və funksionallaşdırır.

2. *Azərbaycan dilinin sosial diferensiallaşması*. Funksional diferensiallaşma cəmiyyətin inkişafı, sosial həyatın yeni dairələrinin meydana gəlməsi ilə müəyyən edilir. Bundan savayı, *üslubi diferensiallaşma təzahürü* də mövcuddur. Hələ Sovet dövründə KİV-in fəaliyyəti ilə bağlı, ələlxüsus da, 1960-cı illərdən sonra müasir Azərbaycan dilinin ifadə imkanlarında, eləcə də struktur sistemində çox mühüm inkişaf və irəliləmə xüsusiyyətləri özünü göstərməyə başlamışdır. Medianın dilində xüsusi epitetli standartların meydana gəlməsi, həmçinin mürəkkəb cümlələrin eyni struktur tiplərinin yaranması məhz müasir dövrün məhsulu kimi dəyərləndirilməlidir.

Müasir Azərbaycan dilində baş verən sosial dəyişmələrdən biri də fərdi meyillərlə bağlı söz düzəldilməsi və sözlərin dialektlərdən alınaraq işlədilməsindən ibarətdir. Qeyd edək ki, dildə bu istiqamətdə sözartımı əməliyyatı aparılması çox zaman leksik-semantik normaların pozulmasına gətirib çıxarmışdır.

3. *sosial inkişafın şərtləri və dilin funksionallaşması;*
4. *Azərbaycan dilinin sosial təbiəti;*
5. *ədəbi dil;*
6. *ərazi dialektləri;*
7. *loru sözlər;*
8. *professional və qrup şəklində olan jarqonlar. Gənclərin işlətdiyi jarqonlar;*
9. *dilin sosial şərtləndirmə prosesi, qarşılıqlı təsirlər;*
10. *dil prosesinin sosial konteksti;*
11. *ədəbi dil və ərazi dialektləri arasında qarşılıqlı münasibətlər;*
12. *dilə sahib olmanın (yiyələnmənin) sosial aspektləri* (Крысин Л.П. Москва, 1989).

Beləliklə, dil faktları və strukturu insanların ünsiyyət təcrübəsi ilə funksionallaşır. Dilin funksional aspekti nitqi (diskursu), insanın nitq əxlaqını kommunikasiya aktında dil hadisələri ilə reallaşdıraraq funksionallaşır, insanın nitq hərəkəti (davranışı) isə kommunikasiya prosesində funksionallaşır. Funksional müəyyənləşmə funksional şərtləndirmə ilə üzvi şəkildə əlaqədardır.

**Nəticə / Conclusion**

Bəzi təkliflər: Məqalədə qeyd edilən məsələlər yazılacaq və görüləcək işlərdə, əsas sosial şərtləndirmə prosesində təsvir olunmalıdır. Sosiolinqvistik nöqteyi-nəzərdən Azərbaycan dilinə sahibolma fenomeninə baxılmalıdır. Dil işarələrinin strukturu və bir sıra sosial komponentlər təhlil olunmalı və üzə çıxarılmalıdır. Sosial kontekstdə müasir Azərbaycan dilinin funksionallaşma qanunauyğunluqları müəyyənləşdirilməlidir. Sosial kontekstdə ana dili, ölkədə fəaliyyət göstərən azsaylı xalqların dilləri, onların bir-birinə təsir imkanları və əlaqədə olan digər müasir dillər müqayisə olunmalı və əsas nəticələr müəyyənləşdirilməlidir.

Funksional tədqiqatlar geniş kommunikasiya prosesinə əsasən aparılır və dillərin funksional araşdırmalarının yeni istiqamətləri meydana çıxır.

**İstifadə edilmiş ədəbiyyat / References**

1. Əzizova P.Ə. (2005). Sosiolinqvistika: problemlər, metodlar. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı.
2. Rüstəmov Y. (2004). Fəlsəfənin əsasları. Bakı, “Elm” nəşriyyatı.
3. Berge Vaprdar. (1989). Açıklamalı Dilbilim Terimleri Sözlügü. Ankara.
4. Bosnalı. (2007). İran Azerbaycan Türkçesi: Toplumbilimsel Bir İnceleme. Kebikeç Yayın Evi, İstanbul.
5. Аврорин В.А. (1972). Двуязычие и школа. Проблемы двуязычия и многоязычия. Москва, Наука, с.49-62
6. Дешериев Ю.Д., Протченко И.Ф (1972). Основные аспекты исследования двуязычия и многоязычия. Проблемы двуязычия и многоязычия. Москва, Наука, с.26-42
7. Жирмунский В.М. (1968). Проблемы социальной диференциации языков. «Язык и общество», Москва.
8. Кормушин И.В. (1984). Системы времен глагола в алтайских языках. Москва.
9. Крысин Л.П. (1989). Социолингвистические аспекты изучения современного русского языка. Москва, «Наука».
10. Поливанов Е.Д. (1928). Задачи социальной диалектологии русского языка. Родной язык и литература в трудовой школе. № 2, с.4-5